

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 52 (21.462)

*18 mart 2016-cı il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Son illərdə Naxçıvan Muxtar Respublikasında geniş quruculuq işləri həyata keçirilir. Bununla bağlı əhalinin və infrastruktur obyektlərinin mühafizəsini və fövqəladə halların qabaqlanması üçün profilaktik tədbirlərin planlaşdırılmasını həyata keçirən, bu sahədə müvafiq qərarlar qəbul edən dövlət orqanlarından vahid elmi-praktik yanaşma tələb olunur.

"Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, digər infrastruktur obyektlərinin, o cümlədən qaz kəmərlərinin, kommunikasiya xətlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin əsaslandırılmış şəkildə həll edilməsi məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" nəşr edilsin.

2. "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın redaksiya heyətinin aşağıdakı tərkibi təsdiq edilsin:

**Redaksiya heyətinin sədri**

Asəf Məmmədov – Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini.

**Redaksiya heyəti sədrinin müavinləri:**

Şamı Abdullayev – Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri

İsmayıl Hacıyev – Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri.

**Məsul katib**

Tariyel Talıbov – Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin Bioresurslar İnstitutunun direktoru.

**Redaksiya heyətinin üzvləri:**

Famil Seyidov – Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri

Niyazi Novruzov – Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri

Rövşən Məmmədov – Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri

Mirsənani Seyidov– Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri

Elşad Əliyev – Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri

Hafiz Yaqubov – Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri

Natəvan Qədimova – Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri

Məmməd Qəribov – Naxçıvan Muxtar Respublikasının təhsil naziri

Müslüm Cabbarzadə – Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri

Kamal Cəfərov – Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin sədri

Saleh Məhərrəmov – Naxçıvan Dövlət Universitetinin rektoru

Yasin Səfərov – Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru

Əliəddin Abbasov – Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru

Ramin İsmayılov – "Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru

Mübariz Bayramov – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri

Nazim Bababəyli – Naxçıvan Dövlət Universitetinin Coğrafiya kafedrasının müdiri.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 mart 2016-cı il*

## 2016-cı ilin yanvar-fevral ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2016-cı ilin yanvar-fevral aylarında 316 milyon 881 min 100 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 712,4 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 161 milyon 350 min 600 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 1,7 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-fevral ayları ərzində muxtar respublikada əsas kapitala 96 milyon 320 min 400 manat həcmində investisiya yönəldilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 89 milyon 542 min 900 manatı və ya 93 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar-fevral aylarında informasiya və rabitə xidmətlərinin həcmi 8 milyon 565 min manata yaxın olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 7 milyon 102 min manat olmaqla bir il öncəki göstəricini 1,8 faiz üstələmişdir.

* * *

Qeyd olunan dövrdə 13 milyon 307 min manatdan artıq həcmdə kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 3,7 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 3,3 min ton ət, 4,8 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3 faiz, süd istehsalı 1,3 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar-fevral aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artaraq 239 milyon 345 min 100 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,3 faiz yüksələrək 538,1 manat təşkil etmişdir.

* * *

2016-cı ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 399,7 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 mart 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 53677-yə çatmışdır ki, bunun da 50540-ı və ya 94,2 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar-fevral aylarında açılmış 4838 bank hesabının hamısı aktiv hesablar olmuşdur.

Muxtar respublikada POS-terminalların sayı 1 mart 2016-cı il tarixə 1099-a çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, cari ilin yanvar-fevral aylarında muxtar respublikada 39801,8 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 0,4 faiz artaraq 36300,8 min Amerika Birləşmiş Ştatları dolları, idxalın həcmi isə 34,3 faiz azalaraq 3501 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 33 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2016-cı ilin yanvar-fevral aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 5525,8 min manat məbləğində kreditlər verilmişdir.

* * *

Bu dövrdə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 792,6 min manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz çoxdur.

* * *

2016-cı ilin yanvar-fevral aylarında muxtar respublikaya 41 min 825 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 3,3 faiz və ya 1349 nəfər çoxdur.

* * *

1 fevral 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4665 nəfər və ya 1,1 faiz artaraq 444 min 766 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Sahibkarlar Konfederasiyası ötən il fəaliyyətini daha da genişləndirib

***Martın 17-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının 2015-ci ilin yekunlarına həsr olunmuş yığıncağı keçirilib. Tədbiri Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov açaraq muxtar respublikanın hərtərəfli inkişafında sahibkarlığın rolundan danışıb, özəl sektora göstərilən dövlət qayğısından bəhs edib.***

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sektor müdiri Azər Cəfərov çıxış edərək bildirib ki, Sahibkarlar Konfederasiyası 2015-ci ildə fəaliyyətini Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə Ali Məclis Sədrinin sahibkarlığın inkişafı sahəsində verdiyi tapşırıqların icrası istiqamətində qurub. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birlikdə yerli istehsal məhsullarının satış həcminin artırılması məqsədilə həvəsləndirici kampaniyaların keçirilməsi üçün sahibkarlıq subyektləri ilə görüşlər keçirilib, həvəsləndirici kampaniyalar müəyyən edilib və bu istiqamətdə işlər hazırda davam etdirilir.



Bildirilib ki, 2015-ci il ərzində istehsal xərclərinə qənaət və məhsulun maya dəyərinin kalkulyasiyasının düzgün aparılmasına nəzarətin təmin edilməsi üçün istehsal təyinatlı müəssisələrdə sahibkarlarla görüşlər təşkil edilərək bu məsələ ilə bağlı onların fikirləri öyrənilib və sahibkarlara metodik köməklik göstərilib. Bundan əlavə, muxtar respublikada beynəlxalq və yerli əhəmiyyətli yükdaşımaları üçün logistik şirkətin yaradılması ilə bağlı irihəcmli istehsal obyektlərinin sahibkarları ilə görüşlər keçirilib, hazırda onların yüklərinin göndəriləcəyi yerlərin müəyyənləşdirilməsi və logistik şirkətin yaradılması üçün planlar hazırlanır. Ölkəmizin digər bölgələrinə satış üçün məhsul göndərən sahibkarlıq subyektlərinin müraciəti əsasında Sahibkarlar Konfederasiyası adından gömrük orqanlarına müraciət olunub və nəticədə, yerli istehsal məhsullarının respublikamızın digər bölgələrinə çıxarılmasına nail olunub.

Qeyd edilib ki, fəaliyyətini dayandırmış və ya istehsal həcmi azalmış müəssisələrin fəaliyyətinin bərpası, istehsal potensialından səmərəli istifadə edilməsi üçün də müvafiq tədbirlər həyata keçirilib. Belə ki, Şahbuz rayonunda fəaliyyət göstərən "Farma-Şah" müəssisəsinin istehsal həcmini artırmaq məqsədilə həmin müəssisə ilə "Cahan çay" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında əlaqələr yaradılıb. Yerli istehsal məhsullarının daxili bazarda mövqeyinin gücləndirilməsi və ixracına nail olunması üçün müvafiq dövlət orqanları ilə əlaqələr quraraq müzakirələr aparılıb, sahibkarlarla görüşlər keçirilib, onlara tövsiyələr verilib. Dövlət müəssisələrinin ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatının yerli istehsal məhsulları hesabına ödənilməsi üçün həmin müəssisələr ilə əlaqələr qurulub, onların tələbatı öyrənilib və istehsalçı müəssisələrlə əlaqələndirilib. Kiçikhəcmli istehsal sahələrinin yaradılması məqsədilə layihələrin hazırlanması, sahibkarlara təqdim edilməsi üçün nazirliyin müvafiq şöbəsi ilə birlikdə layihələr hazırlanıb və sahibkarlara təqdim olunub. Biznes-forum, seminar, konfrans, ixtisasartırma kursları, beynəlxalq layihələr üzrə keçirilən tədbirlərdə sahibkarların iştirakı təmin edilib.

Vurğulanıb ki, yuxarıda adıçəkilən müşavirədə verilmiş tapşırıqların icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi ilə birlikdə Naxçıvan Biznes Mərkəzində sahibkarların bilik səviyyələrinin artırılması məqsədilə kurslar təşkil edilib. Kurslara Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin nümayəndələri dəvət olunub. Seminarlarda sahibkarlarla müzakirələr aparılıb, onlara yeni qəbul olunmuş normativ-hüquqi aktlar haqqında məlumatlar verilib.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb.

**Səbuhi HƏSƏNOV**

## Tur-aksiya iştirakçıları Naxçıvan şəhərində və Ordubad rayonunda təhsil, mədəniyyət və sənaye müəssisələri ilə tanış oldular





***Martın 17-də "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçıları Naxçıvan Dövlət Universiteti və Naxçıvan şəhərində fəaliyyət göstərən sənaye müəssisələri ilə tanış olublar.***

Naxçıvan Dövlət Universitetinin kampusu ilə tanışlıq zamanı tədris işləri üzrə prorektor Surə Seyid şagirdlərə ali təhsil ocağı barədə ətraflı məlumat verib. Bildirilib ki, universitetin 108 hektarlıq ərazisində 16 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, sosial xidmət mərkəzi, universitet xəstəxanası, baytarlıq klinikası, olimpiya-idman mərkəzi, 2 stadion, müasirtipli tələbə evi yerləşir.

Qeyd olunub ki, hazırda ali təhsil ocağında 12 fakültədə 57 ixtisas üzrə 6 min nəfərə yaxın tələbə təhsil alır. Bu gün dünyanın 12 ölkəsindən 350-dən çox xarici tələbə universitetdə təhsilini uğurla davam etdirir. Ali məktəb 80-dən çox tanınmış dünya universitetləri ilə tərəfdaşlıq etməklə yanaşı, bir sıra beynəlxalq layihələrdə də uğurla təmsil olunur. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə həyata keçirilən "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi isə Azərbaycan ali məktəbləri üzrə ən irihəcmli layihədir. Ali təhsil ocağı Azərbaycanda elektron sənəd dövriyyəsinə və elektron idarəetmə sisteminə malik yeganə universitetdir.

Diqqətə çatdırılıb ki, Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatının reallaşdırdığı "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsinin nəticələrinə əsasən, Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yeri tutub. Universitet möhkəm milli əsaslara malik olan, dövlətçilik təmayüllü və dünyaya inteqrasiya etmiş müasirtipli ali təhsil ocağıdır.

Naxçıvan Avtomobil Zavodunda qonaqlara məlumat verilib ki, zavod 2010-cu ildən fəaliyyətdədir. Hazırda zavodda 10 modeldə "NAZ-Lifan" avtomobili istehsal olunur. Respublikada sifarişlərin artması nəzərə alınaraq zavod model sırasını genişləndirir.

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı bildirilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması "Badamlı" mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarıb, 2004-cü ildə özəlləşdirilən müəssisədə daha keyfiyyətli məhsul istehsalına başlanılıb.

Naxçıvan Muxtar Respublikasında səfərdə olan "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya iştirakçıları martın 17-də füsunkar təbiəti, tarixi abidələri ilə diqqətçəkən Ordubad rayonunda da olublar.

Əvvəlcə şagirdlər Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəbə gəliblər. Şagirdlərin diqqətinə çatdırılıb ki, üçmərtəbəli məktəb binası 744 şagird yerlikdir. Təhsil ocağında müasir tələblər səviyyəsində maddi-texniki baza yaradılıb. Burada ayrı-ayrı fənn kabinələri və laboratoriyalar mövcuddur.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi "Qeysəriyyə" tarixi binasına gələn məktəblilərə buradakı eksponatlar barədə məlumat verilib. Bildirilib ki, muzey XII əsr abidəsi olan "Qeysəriyyə" binasında yerləşir. Keçmişdə şahlara məxsus daş-qaş satılması məqsədilə tikilmiş örtülü Şərq bazarına "Qeysəriyyə" deyilirdi. "Qeysəriyyə" dünyadakı nadir abidələrdən biridir. Belə tikililərə dünyanın 3 yerində – Səmərqənd, Təbriz və Ordubad şəhərlərində rast gəlinir.

Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin ev-muzeyində şagirdlərə məlumat verilib ki, burada onun tərcümeyi-halı, əlyazmaları, nəşr olunan məqalə və kitabları, eləcə də teatr səhnəsindəki xidmətlərini əks etdirən dəyərli nümunələr, görkəmli pedaqoqun zəngin irsinin öyrənilməsi ilə bağlı keçirilən konfransların materialları, qəbul olunan proqramlar, Məhəmməd Tağı Sidqi haqqında yazılmış kitab, jurnal, qəzet materialları və fotoşəkillər qorunur.

Məktəblilər Məmməd Səid Ordubadinin ev-muzeyində də olublar. Məlumat verilib ki, ümummilli lider Heydər Əliyev 1972-ci ildə Ordubad şəhərində Məmməd Səid Ordubadinin ev-muzeyinin yaradılması haqqında qərar qəbul edib. 2010-cu ildə muzeydə yenidənqurma işləri aparılıb. Bu gün muzeydə yazıçının həyatını və yaradıcılığını əks etdirən 2 minə yaxın eksponat qorunub saxlanılır.

Ordubadın füsunkar təbiəti, tarixi abidələri ilə tanışlıq məktəblilərdə zəngin təəssürat yaradıb.

Həmin gün axşam "Duzdağ" otelində tur-aksiya iştirakçıları üçün Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin konserti olub.

***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakı şəhərinin 12 rayonundan 168 məktəbli 20 bələdçi-müəllimin müşayiəti ilə martın 16-da Naxçıvan Muxtar Respublikasına gəlib. Martın 17-də tur-aksiya iştirakçıları ilə görüşərək onlardan təəssüratlarını öyrəndik.***

## *"Ölkəmizi tanıyaq"* maarifləndirici tur-aksiyanın iştirakçıları Naxçıvan haqqında

*Bakı Şəhər Nəsimi Rayon İcra Hakimiyyətinin əməkdaşı Vəfa İsmayılova* dedi:



– Mən Naxçıvan Muxtar Respublikasına gəldiyim ilk gündən burada tur-aksiyanın səmərəli keçirilməsi üçün təşkilatçılığın çox yüksək olduğunu gördüm. Görünür, bu məsələlərdə Naxçıvan təcrübəsi öz sözünü deyir.

Naxçıvanın tarixi, gəzməli-görməli yerləri, maddi-mədəniyyət nümunələri barədə məlumatım var idi. Bilirəm ki, 5 minillik şəhər mədəniyyətinə malik olan, Azərbaycan dövlətçiliyinin beşiyi kimi şan-şöhrət qazanan Naxçıvanda çox gözəl tarixi məkanlar var. Eşitmişdim ki, Naxçıvan sürətlə inkişaf edir. Təşkil edilən ekskursiyalar həm biz bələdçilərin, həm də şagirdlərimizin ölkəmizin qədim diyarını yaxından tanımağına şərait yaratdı. Tur-aksiya proqramının mükəmməl şəkildə hazırlanması da, bir az öncə qeyd etdiyim kimi, təşkilatçılığın yüksək səviyyədə olması da buna öz təsirini göstərir.

Naxçıvan şəhərinin, buradakı tarixi abidələrin və müasir binaların gözəlliyi, insanların qonaqpərvərliyi və istiqanlılığı hər bir şagirdimizdə xoş duyğular yaradır. Naxçıvan şəhərindəki bir çox tarixi yerləri, təhsil və sənaye müəssisələrini, qədim Ordubad şəhərinin mədəniyyət müəssisələrini və digər məkanları gəzdik. Biz və şagirdlərimiz gəzdiyimiz yerlərin tarixi ilə tanış olduq və iki gün ərzində Naxçıvan barədə bizdə çox böyük təəssüratlar yarandı.



*Bakı şəhərinin Nizami rayonundakı 229 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Fatma Məmmədli* Naxçıvan şəhərindəki ali təhsil müəssisələrinə heyranlığını gizlətmədi. O dedi:

– "Naxçıvan" Universitetində və Naxçıvan Dövlət Universitetində tələbələrin təhsil alması üçün yaradılan şərait hər birimizin xoşuna gəldi. Həqiqətən də, Naxçıvan şəhərindəki ali təhsil ocaqları çox gözəldir. Bu şəhərdə, həmin ali təhsil ocağının birində təhsil almağı istərdim. Çalışacağam ki, bundan sonra da yaxşı oxuyum və imtahanlarda lazım olan balı toplayaraq həmin universitetlərdən birinin tələbəsi adını qazanım.



*Bakı şəhər Nəsimi rayonu 54 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Ağaəlfəkbər İsmayılov*un diqqətini isə daha çox sənaye müəssisələri çəkib. O deyir:

– Mən iqtisadiyyat sahəsinə böyük maraq göstərirəm. Bu sahəyə aid dərsdənkənar əlavə kitablar da oxuyuram. Gələcəkdə iqtisadçı olmağı düşünürəm. Burada məni daha çox Naxçıvan şəhərində gördüyüm sənaye müəssisələri təəccübləndirdi. Həmin müəssisələrin muxtar respublikada fəaliyyət göstərdiyini bilirdim. Ancaq burada istifadə edilən yeni, müasir texnologiyanı görməmişdim. Naxçıvan hər sahədə, eyni zamanda sənayedə də çox inkişaf edib. Avtomobil, "Badamlı" zavodları ilə tanışlıqdan sonra məndə bu qənaət yarandı.

Biz məktəblilər bu diyarın görməli yerlərini gəzirik, tarixi abidələri ilə tanış oluruq. Naxçıvanda şəhərlər də, kəndlər də gözəldir. Avtobusla hansı kənddən keçdiksə, orada çox gözəl binalar, yollar gördüm. Hər yer çox gözəldir. Naxçıvanın gözəlliyi məni heyran etdi.

**Rauf ƏLİYEV**

***Qarşıdan Novruz bayramı gəlir. Artıq bir neçə gündür ki, şəhər və rayonlarımızın əhalisi bayram tədarükü görür, əziz bayramımız olan Novruz bayramında süfrələrin müxtəlif naz-nemətlə bəzədilməsinə çalışır, bunun üçün bazarlara və yarmarkalara üz tutur. Təbii ki, alıcıları bu günlərdə ən çox sevindirən qiymətlərin ucuzluğu, məhsul bolluğudur. Biz də qiymətlərlə maraqlanmaq üçün bayram yarmarkalarının təşkil edildiyi Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi bazardan və "Cahan" Ticarət Mərkəzindən yolumuzu saldıq.***

## Bayram ərəfəsində bazarlarda və yarmarkalarda ucuzluqdur

"Cahan" Ticarət Mərkəzində Novruz bayramı münasibətilə topdan və pərakəndəsatış obyektlərinin, piştaxtaların önü qələbəlik idi. Bu da qiymətlərin əhali üçün sərfəli olduğunu göstərirdi. Bir çoxları elə fikirləşirdilər ki, bayram ərəfəsində bahalaşma olacaq. Ancaq bunun əksinə, bir çox qiymətlərdə ucuzlaşma var idi.

Satıcılar qiymətdə heç bir artımın olmadığını və alıcıların mövcud qiymətlərdən razı qaldıqlarını dedilər. Bazarda qiymətlərin hər kəsin büdcəsinə uyğun olduğunu bildirən satıcılardan Elgün Abbasov dedi ki, piştaxtasında satılan meyvələrin qiyməti hər kəsin büdcəsinə görədir. Bundan başqa, aidiyyəti qurumlar tərəfindən gündəlik olaraq qiymətlərə nəzarət olunur, qiymət yarlıqlarının satılan malın üzərində olmasına diqqət göstərilir. Ümumiyyətlə, tək bayramlarda deyil, hər gün qiymətlərin ucuz olmasına çalışırıq.

Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi bazarda alıcılar da satıcılar kimi qiymətlərdən məmnun qaldıqlarını bildirirdilər. Alıcılardan Mətanət Orucova yarmarkada bol seçim imkanının, bazardakı qiymətlərin qaneedici olduğunu dilə gətirdi. Təbii ki, yarmarkanın öz üstünlükləri var. Torpaq mülkiyyətçiləri, fermerlər məhsulu kəndlərdən gətirib özü satır, alverçilərə vermir. Bu da məhsulun çeşidini bollaşdırır, qiymətləri daha da aşağı salır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin müdiri Namiq Əhmədov dedi ki, bayram ərəfəsində təşkil edilən yarmarkalarda və bazarlarda həm qiymətlərə, həm də məhsulların keyfiyyətinə nəzarət olunur. Qiymətlərə nəzarət etmək üçün nazirliyin işçi qrupları yaradılıb. Bundan başqa, nazirlik Novruz bayramı ərəfəsində qiymətlərin süni şəkildə artırılması faktlarının aşkar olunmasına yönəldilmiş müntəzəm monitorinqlərin keçirilməsini intensivləşdirib. Bazarlarda ərzaq mallarının qiymətlərinin sabit dinamikası saxlanılır və dəyişikliklər qeydə alınmayıb.

Müsahibimiz onu da bildirdi ki, istehlakçıların hüquqlarının qorunması məqsədilə daxili bazarda qiymət intizamına əməl olunması və süni bahalaşma hallarının qarşısının alınması təkcə bayram ərəfəsində deyil, ilboyu aktuallıq kəsb edən məsələlərdəndir. Yerli istehsal müəssisələrinin sahibkarları, ərzaq və qeyri-ərzaq məhsullarını muxtar respublikaya idxal edərək topdansatışını həyata keçirən sahibkarlar, daxili bazarda həmin məhsulların pərakəndə satışını həyata keçirən ticarət



obyektlərinin sahibkarları ilə qiymətlər barədə müzakirələr aparılıb. Bazarda süni qiymət artımı hallarının qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində müvafiq işçi qrupları yaradılaraq muxtar respublikanın şəhər, rayon, qəsəbə və kənd mərkəzlərində fəaliyyət göstərən ticarət obyektlərində gündəlik olaraq maarifləndirici monitorinqlər aparılıb. Aşkar olunmuş nöqsan və çatışmazlıqlar aradan qaldırılıb, qiymət artımının qarşısının alınması məqsədilə ərzaq və qeyri-ərzaq məhsullarının üzərinə qiymət yarlıqlarının vurulması təmin edilib, ərzaq və qeyri-ərzaq məhsullarının pərakəndəsatış qiymətlərinə gündəlik nəzarət həyata keçirilib. Daxili bazarda qiymət intizamına nəzarətin gücləndirilməsi məqsədilə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları ilə birlikdə həftədə 1 dəfə olmaqla daxili bazarda əsas istehlak mallarının pərakəndəsatış qiymətlərinin monitorinqi həyata keçirilib, müəyyən olunmuş qiymətlərin ötən ayın müvafiq dövrlərində mövcud olmuş pərakəndəsatış qiymətləri ilə müqayisəli təhlilləri aparılıb. Əlavə olaraq muxtar respublikada istehsal olunan 480 adda və idxal olunan 1631 adda ərzaq və qeyri-ərzaq məhsullarının qiymətlərində yaranması nəzərdə tutulan qiymət artımının müəyyən olunmuş həddən yuxarı qiymətə satışının qarşısının alınmasına nəzarət olunması məqsədilə maarifləndirici istiqamətdə monitorinqlər həyata keçirilib və mövcud pərakəndəsatış qiymətlərinin ötən ilin və ötən ayın müvafiq dövrləri ilə müqayisəli təhlilləri aparılıb.

Manatın devalvasiyasından sonrakı müddət ərzində muxtar respublikaya idxal olunaraq satışı həyata keçirilən məhsulların qiymətlərində müəyyən artımın yaranması zərurətini nəzərə alaraq 15 sahibkarlıq subyekti tərəfindən idxal edilərək satışı həyata keçirilən ərzaq və qeyri-ərzaq məhsullarının yeni artım qiyməti ilə satışına icazə verilməsi haqda müraciətlərinə baxılaraq müvafiq təhlillər aparılıb, yerli istehsal məhsulları nəzərə alınaraq analoji idxal məhsullarının idxalına məhdudiyyətlər tətbiq olunmaqla, ümumilikdə, 863 çeşid məhsulun qiymətləri təhlil olunub, qiymətləri nəzərdə tutulan həddən aşağı olan məhsulların satışına icazə verilib. Bütün bu tədbirlər, son nəticədə, əhalinin rifah halının yaxşılaşdırılmasına yönəldilib.

Apardığımız müşahidələr zamanı məlum oldu ki, yarmarkalardakı məhsulların qiymətləri bazarlardakı qiymətlərdən 20-30 faiz ucuzdur. Bu da onu göstərir ki, bayram günlərində yarmarkaların təşkili əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə yönəldilib.

Ümumiyyətlə, araşdırmamız nəticəsində məlum oldu ki, bayramqabağı bazarlarda və yarmarkalarda heç bir qiymət artımı müşahidə olunmur. Əksinə, qiymətlərdə endirim var. Odur ki, Novruz bayramında süfrənizin ruzili və bərəkətli olmasını diləyirik. Bayramınız mübarək!

**Səbuhi HÜSEYNOV**

# Naxçıvanda turizmin müxtəlif növlərinin inkişafı üçün geniş imkanlar vardır

***Fenomenal bir hadisə kimi turizm müasir dünya iqtisadiyyatında mühüm yer tutur. O, iqtisadi cəhətdən gəlirliliyinə və mədəniyyətlərarası dialoqdakı roluna görə xüsusilə əhəmiyyətlidir. Cəmiyyətin iqtisadi və mədəni tərəqqisinin, xalqlar arasında humanitar əlaqələrin və tolerantlığın bir göstəricisi olan turizmin inkişaf etdirilməsi bu baxımdan ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzindədir.***

Naxçıvanın zəngin turizm ehtiyatları – qədim tarixi və müasir inkişafı, rəngarəng təbii müxtəlifliyi və unikal müalicə-rekreasiya məkanları, müalicəvi duz mağaraları, yaradılmış müasir sosial-mədəni və turizm infrastrukturu burada çox sayda turizm növünün inkişafı üçün əlverişli şərait yaratmışdır. Artıq muxtar respublikaya il ərzində 400 minə yaxın turist səyahət edir ki, onların təəssüratlarında Naxçıvan haqqında yüksək fikirlər səsləndirilir. Elə bu yaxınlarda Azərbaycan Respublikası Prezidentinin Türkiyəyə işgüzar səfəri zamanı qardaş ölkənin Prezidenti Naxçıvanın turizm potensialı haqqında xoş sözlər demiş, ölkəsinin vətəndaşlarını muxtar respublikamıza səyahət etməyə çağırmışdı. Doğrudan da, muxtar respublikamıza səfər edən qonaqlarda dərin təəssürat yarada biləcək bir çox turizm növləri üçün bu diyarda geniş imkanlar mövcuddur.



*Ağbulaq İstirahət Mərkəzi*

Hazırda Naxçıvana səyahət edən turistlər üçün çox geniş məzmunlu rekreasiya-tanışlıq imkanları yaradan bir şərait vardır. Turizmin cəmiyyətin ümumi inkişafı ilə ahəngdar olduğunu nəzərə alsaq, ötən dövrdə Naxçıvan Muxtar Respublikasında turizm sahəsində əldə olunan nailiyyətlər bu baxımdan diqqəti cəlb edir. İndi artıq muxtar respublikaya xaricdən və ölkəmizin digər yerlərindən turistlərin gəlməsi üçün imkanlar yaranmışdır. Naxçıvana gələn əcnəbi turistlər eyni zamanda ölkəmiz haqqında informasiya ixrac edən xoşməramlı elçilərdir. Ona görə də beynəlxalq turizmə təkcə valyuta gəlirləri mənbəyi olaraq deyil, həm də öz mədəniyyətimizi tanıtmaq vasitəsi kimi də baxmalıyıq. 2018-ci ildə Naxçıvan İslam Mədəniyyətinin paytaxtı elan olunmuşdur. Bu, Şərqlə Qərbin qovşağında yerləşən Naxçıvanın ümumi inkişafını, tarixini, mədəniyyətini dünyaya tanıtmaq üçün yaxşı fürsətdir.

Ancaq turizm heç də təkcə zəngin ehtiyatlar hesabına öz-özünə inkişaf edən bir sahə deyildir. Əksinə, turizm hər kəsdən öz töhfəsini gözlədiyi çox həssas bir münasibətlər sistemidir. Buna görə də hər bir turizm-rekreasiya kompleksinə ixtisaslaşmış bir sahə kimi yanaşma tələb olunur ki, bu da turizm sahəsində dərin bilik, bacarıq və yüksək məsuliyyət tələb edir.

Naxçıvan Muxtar Respublikası ümumi halda özünün bütün turizm potensialı ilə turistlərə həm zəngin rekreasiya, həm də mənəvi zənginlik təəssüratı vəd edən nadir bölgələrdən biridir. Naxçıvanda təbiət abidələri bir-birini tamamlayır, tarixi-mədəni ehtiyatlar isə milli qonaqpərvərlik elementləri ilə bitkinlik təşkil edir. Müasir turizmin ən mühüm şərtlərindən biri olan təhlükəsizlik və rahat səyahət şərtləri Naxçıvanda ən yüksək dərəcədə təmin olunmuşdur. Bu torpağın təmiz havası, mineral su mənbələri, bir-birini əvəz edən landşaftı, unikal bitki və canlılar aləmi burada ekoturizmin müxtəlif növləri üçün geniş imkanlar açır.

Müasir Naxçıvan kəndlərində kənd turizminin inkişafı üçün əlverişli şərait vardır. Kəndlərimizin abadlaşdırılması, təkcə yerli əhalinin deyil, turistlərin də istifadə edəcəyi müasir sosial infrastrukturun yaradılması və yerli əhalinin həyat səviyyəsinin yüksəldilməsi kənd turizmi üçün yaxşı imkanlar yaradır. Muxtar respublikamızda özəl sektora verilən dəstək isə bu turizm növündə yerli əhalinin iştirakını stimullaşdırır.

Turizm onun inkişafı üçün zəruri olan müasir infrastruktur şəraitinə çox həssasdır. Turistlərin komfortlu istirahəti üçün müasir mehmanxana, yol-nəqliyyat və restoran şəbəkəsi, ekskursiya büroları və bunlardan səmərəli istifadə edə biləcək ixtisaslı kadrlar olduqda istənilən turizm ehtiyatı əsasında turistlərin gətirilməsi mümkündür. Bu baxımdan hazırda muxtar respublika ərazisindəki birdəfəlik tutumu 1500 nəfərdən çox olan 20-dən artıq mehmanxanada gələn turistlərin rahat gecələməsi, burada işgüzar görüşlər keçirməsi üçün müasir şərait yaradılmışdır. Naxçıvanın “Duzdağ”, “Təbriz”, “Qrand”, “Avtovağzal” otellərində, Ağbulaq İstirahət Mərkəzində qalan, müasir restoran şəbəkəsindən, rahat yollardan istifadə edən turistlər buradakı xidmətlərdən, göstərilən qonaqpərvərlikdən razı qalırlar.



*“Duzdağ” oteli*

Turizm peşəkarlığa da çox həssasdır. Bu baxımdan Naxçıvanda fəaliyyət göstərən turizm sektoru işçisi vəzifəsindən asılı olmayaraq, yüksək peşəkarlıq nümayiş etdirməli, öz ölkəsinin, yaşadığı regionun tarixini, coğrafiyasını gözəl bilməli, bir deyil, bir neçə xarici dildə sərbəst danışmalı, informasiya-kommunikasiya texnologiyalarından yaxşı baş çıxarmalı və turistlərə bu torpağın gözəlliklərini, azərbaycanlıların qonaqpərvərliyini vətənpərvərcəsinə vəsf etməlidir. Müasir dünyada peşəkar turizmçi ona təqdim olunacaq turizm marşrutunun hazır sxematik xəritəsini gözləmədən özü yeni istiqamətlərdə turların layihəsini işləyib hazırlamalıdır. Bu gün muxtar respublikamızda mərkəz nöqtəsi Naxçıvan şəhəri olmaqla Naxçıvan-Şahbuz-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad-Gəmiqaya, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar istiqamətlərində turizm marşrutları işlənib hazırlanmışdır. Ancaq perspektivdə bu marşrutların sayının dəfələrlə artırılması üçün onlar əsasında qiymətləndirmə aparılması və hazır yollayışların turagent şəbəkələrində satışa çıxarılması əsas məsələlərdəndir. Otellərimizdə elektron rezervasiya da aktual məsələlərdən biridir.



*“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi*



*“Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi*



*Naxçıvan şəhərində İmamzadə Kompleksi*

Novruz bayramı ərəfəsində muxtar respublikamıza minlərlə qonaq gəlməkdə, az qala iki həftəyə yaxın tətil günü keçirməkdədir. Bu ərəfəyə aylar öncə hazırlaşmalı olan turfirmalar icra hakimiyyətləri və bələdiyyələrlə birgə turistlərə təqdim ediləcək tədbirlərin planını hazırlayıb müvafiq təşkilatlardan – Mədəniyyət və Turizm Nazirliyindən və elm-təhsil müəssisələrindən metodoloji dəstək istəməli idilər. Dünya təcrübəsinə əsasən, qısa mövsümdə əlbir işləməklə turizmdən yaxşı töhfə almaq istəyən belə turizm sənayesi modeli öz çevikliyi və operativ menecmenti ilə fərqlənməlidir. Belə olduqda, misal üçün, yuxarıda qeyd etdiyimiz kimi, bu bayram günlərində öz dərin milli inancları naminə doğma yurd-yuvalarına səyahət edənlərə bol xidmətlər zərfi təklif olunması da asanlaşır. Belə ki, bu gün lap minlərlə kilometr uzaqda olsa da, hər bir azərbaycanlının öz doğma ocağına can atması, yaxınlarına qovuşmaq istəyi inanc turizmi baxımından çox əlamətdar bir hadisə, biznes baxımından isə yaxşı fürsətdir. Çünki dünyada inanclarla yaşayan tək varlıq kimi hər bir insanın Yaradana və yaradılmışa sevgi, mədəniyyətə qovuşmaq, insanların hörmətini və məhəbbətini qazanmaq kimi ülvi duyğularla müqəddəs yerləri ziyarət etmək və bu inancları daha da dərinləşdirmək istəyi vardır.

Hazırda dünya üzrə müxtəlif din və inanc sahibləri olan insanlar bir çox dini ziyarət mərkəzlərinə səyahətlər edirlər. Bu səyahətlərin gerçəkləşdirilməsində inanc turizmi üçün zəruri olan bütün minimum şərait, dini etiqadları baxımından zəvvarları maraqlandıran bütün tələblər ödənilməyə çalışılır. Bu da təsadüfi deyildir. Çünki inanc turizmi kruiz və konfrans turizmindən sonra ən bahalı turizm növlərindən biridir. Başqa sözlə, misal üçün, ekoturizmdə iştirak edən uşaq və gənclərdə əsas motiv təbiətlə ünsiyyət və ekoloji tərbiyə olduğundan bu zaman gəlir əldə edilməsi ehtimalı da azalır. Tanışlıq və inanc turizmində iştirak edənlər isə yaşlı nəslin nümayəndələri olduğundan onların bu səfərləri zamanı xərcləri də çoxdur. Qədimdə zəvvarlar at və dəvələrlə səyahətlərə çıxan varlı adamlar olduğu kimi, hazırda da onların böyük əksəriyyəti hava yolu və bahalı kruiz marşrutları seçən insanlardır. Naxçıvanda ziyarət turizmi üçün həm xeyli sayda ziyarətgahlarımız, həm də müsəlman dünyasından hava, quru və gələcəkdə dəmir yolu ilə gələcək çox sayda zəvvar-turisti qarşılayıb yola salmaq imkanlarımız vardır.

Muxtar respublikamızda inanc turizminin inkişafı üçün mövcud olan ziyarətgahlar haqqında danışarkən ənənəvi olaraq müqəddəs Əshabi-Kəhf ziyarətgahını, qədim tarixi məscidlərimizi, Möminə xatın türbəsini, Nuh Peyğəmbərin türbəsini, Gəmiqaya təsvirlərini, imamzadələri, müxtəlif pirləri sadalaya bilərik. Kiçik bir yazıda bu müqəddəs yerlərin, sadəcə, adını sadalayaraq mətləbə keçməyi daha məqsədəuyğun hesab edirik. İnanc turizmindən danışdıqda onun inkişafı üçün tələb olunanların öyrənilməsi, lazım olan turist seqmentinin düzgün seçilməsi, müvafiq turist marşrutlarının hazırlanması və onların pasportlaşdırılması, burada işə töhfə verə biləcək kadrlara yer verilməsi, onların gücündən istifadə olunması məsələlərinə diqqət yetirilməlidir.

İnanc turizminin təşkili üçün ümumi şərtlər olsa da, bu turizm növünün təşkilinin özünəməxsus tələbləri vardır. Dindarlar və ya zəvvarlar üçün yaradılması zəruri olan ibadət yerləri, mehmanxanalarda qadınlar, kişilər və uşaqlar üçün tələb olunan müvafiq şərait, müxtəlif zərf xidmətlərindən ibarət olan turların yaradılması, onların texniki və iqtisadi cəhətdən qiymətləndirilməsi, bu turlar üzrə müxtəlif turist seqmentini maraqlandıran qiymətlərin müəyyənləşdirilməsi spesifik tələblərdən biridir.

***Muxtar respublikamızda Naxçıvan-Ordubad-Gəmiqaya, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar turizm marşrutları üzrə həm yerli, həm də əcnəbi turistlərə maraqla təqdim olunacaq çox sayda abidə vardır. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən işlənib hazırlanmış sxematik planlarda bu marşrutlar boyunca turistlərə təqdim oluna biləcək bütün maraq obyektləri və yaradılmış infrastruktur şəraiti təsvir edilmişdir. Ancaq turizm marşrutunun uğurlu olması, onun getdikcə daha çox turisti özünə cəlb edə bilməsi üçün belə turların tərkibindəki ekskursiya və əlavə xidmətlər zərfinin hazırlanması tələb olunur. Ümid edirik ki, bu işdə özəl sektor, turizm biznesi ilə məşğul olan sahibkarlar üzərlərinə düşən vəzifəni yerinə yetirəcəklər. Çünki Naxçıvanda inanc turizmi üçün mövcud olan ehtiyatlar və burada müasir turistlərə lazım olan şərait təkcə bir mövsümdə deyil, ilboyu bu turizm növü üzrə turist gətirilməsinə imkanlar yaradır. Turizm firmalarının bu sahədə fəallığının, muxtar respublikamıza səyahət edən turistlərin bir hissəsinin inanc turlarına cəlb olunması üçün geniş təbliğat kampaniyasının vaxtı çatmışdır.***

**Əli CABBAROV**

***Mühit deyəndə, sözün geniş mənasında, təbii, ekoloji, iqtisadi, mədəni, mənəvi, siyasi, elmi, ədəbi atmosfer başa düşülür. Ədəbi mühit isə bütövlükdə bu atmosferin tərkib hissəsi olmaqla, cəmiyyət həyatının mənəvi dünyasının məcmusudur. Bu mənəvi dünyanın özünümüdafiəsi bədii və publisistik əsərlər, ədəbi yığıncaq, məclis, dərnək və sair kimi vasitələrlə həyata keçir. Məktəb və maarif sahəsində görülən işlər də ədəbi mühitlə müəyyən dərəcədə bağlıdır. Ədəbi mühit konkret zaman və məkan çərçivəsində xalqın milli-mədəni təfəkkür, düşüncə və dünyaya baxışının ictimai-bədii ifadəsini özündə əks etdirir. Naxçıvan ədəbi mühiti də qədim və zəngin ədəbi ənənələrə malikdir. Xalqının taleyini, gələcəyini özünün taleyi və gələcəyi hesab edən Mirzə Cəlil, dağına, daşına, Vətəninin əzəmətinə şeirlər qoşan Məmməd Araz, gur bulaqların zümzüməsinə zümzümə qatan İslam Səfərli yurdu Naxçıvan ədəbi mühiti bəs indi hansı səviyyədədir? Bu barədə həmsöhbətimiz Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Yadigardır.***

## Asim Yadigar: Ədəbi mühitimiz durğun deyil, ancaq Naxçıvanda yaşayıb-yaradan şair və yazıçıların heç də hamısından razı deyilik

*– Asim müəllim, Naxçıvanın bugünkü ədəbi mühiti barədə nə deyə bilərsiniz?*



– İlk növbədə qeyd edim ki, Naxçıvanda ədəbi mühit həmişə fəal olub, qaynar olub. Ayrı-ayrı dövrlərdə bir sıra görkəmli yazıçılar Naxçıvanda işləmiş, ədəbi mühitimizin formalaşmasına öz köməklərini göstərmişlər. Ötən əsrin əllinci illərində, daha dəqiq desək, 1958-ci ildə Naxçıvanda Azərbaycan Yazıçılar Birliyinin səyyar plenumu keçirilmişdir. Həmin plenumun da məqsədi Naxçıvan ədəbi mühitinin canlandırılması idi. O vaxt bir sıra şair və yazıçılar yenidən Azərbaycan Yazıçılar Birliyinə (həmin dövrdə SSRİ Yazıçılar Birliyi adlanırdı) qəbul olundu. Onlardan Hüseyn Razi, Əliyar Yusifli, Əhməd Mahmud, Kəmalə Ağayevanın adını qeyd edə bilərik. Beləliklə, ədəbi mühitin formalaşması üçün bir növü zəmin yaradıldı.

Ötən əsrin 70-80-ci illərində Naxçıvanda SSRİ Yazıçılar Birliyinin əvvəlcə 13, sonra isə 19 üzvü vardı. Azərbaycan müstəqillik qazandıqdan sonra, 1998-ci ildə Naxçıvan Yazıçılar Birliyi müstəqil bir təşkilata çevrildi. Həmin dövrdə birliyə daxil olan üzvlərin də sayı artdı. 2007-ci ildə artıq onların sayı 62 nəfərə çatmışdı. Bu gün isə 80 nəfərə yaxın üzvümüz var. Onu da qeyd edim ki, ədəbi mühiti ayrı-ayrı şair və yazıçıların fərd halında yaradıcılığı deyil, yazıb-yaradan şair, yazıçı, filoloq alimlərimizin birlikdə yaradıcılığı formalaşdırır ki, bu baxımdan bu gün Naxçıvanda yaşayıb-yaradan şair və yazıçıların heç də hamısından razı deyilik.

*– Ədəbi mühitdə durğunluq hiss edilir. Bu, nə ilə bağlıdır?*

– Bu, bir az qəribə səslənir, çünki Azərbaycan mətbuatına nəzər salsanız görərsiniz ki, son vaxtlar bizim yazıçılardan Nərgiz İsmayılovanın, şairlərdən isə Elxan Yurdoğlunun, Gülsadə İbrahimlinin əsərləri tez-tez dərc olunur. Bu, onu göstərir ki, adlarını çəkdiyim gənclər ədəbi mühitdə qəbul olunur. Son zamanlar Nərgiz İsmayılovanın "Ədəbiyyat" qəzetində çap olunan "Əcəmi", "Günahkar idi yarpaqlar", "Gilənar rəngi"nə boyanan ovuclar", "Ulduz" jurnalında "Kölgə" hekayələri, Elxan Yurdoğlunun "Unutdum bir-bir hamını", "Susmağın dağ havası", "Yağışdan sonraki torpaq iyi" və sair kimi şeirləri oxucular tərəfindən maraqla qarşılanıb. Bu, bir daha sübut edir ki ədəbi mühitimiz durğun deyil, burada yazıb-yaradan gənclərimiz var.

*– Tərcümə böyük coğrafi məkanda, ölkələr və xalqlar arasında, həm də keçmişlə bu gün arasında əsas ünsiyyət vasitəsidir, gediş-gəlişi təmin edən körpüdür. Bu gün ədəbi mühitimizdə tərcümə ilə məşğul olanlar, xaricdə əsərləri çap olunan yazıçı və şairlərimiz varmı?*

– 2012-ci il oktyabr ayının 19-da Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tövsiyə etdi ki, Naxçıvan Yazıçılar Birliyində Tərcümə Mərkəzi yaradılsın. Biz bu mərkəzi yaratdıq və mərkəzin 3 tərcümə əsəri 2014-cü ildə çap olundu. Həmin kitablara dramlar, şeirlər, hekayələr daxil edilib. Qarşıdakı aylarda da tərcümələrlə oxucuların görüşünə gələcəyik. Mənim üçün sevindirici haldır ki, bizim şairlərimiz, yazıçılarımız qardaş türkiyəli müəlliflərin də əsərlərini dilimizə uyğunlaşdırırlar, tərcümə edirlər. Bunlardan Hüseyn Əsgərovun Əziz Nesindən etdiyi tərcümələri, mərhum Vaqif Məmmədovun tərcümə etdiyi şeirləri, Elxan Yurdoğlu və Nərgiz İsmayılovanın tərcümə etdiyi Kahraman Tazeoğlunun "Bukre" kitabının adını qeyd etmək istərdim.

Son illərdə bir çox yazıçımızın, şairimizin, alimlərimizin əsərləri xaricdə çap olunub. Akademik İsa Həbibbəylinin əsərləri Amerikada, Misirdə, Pakistanda, Ukraynada, Rusiyada çap edilib. Həmid Arzulunun "Qırıq ayna"sı Türkiyədə, Şamil Zamanın, Xanəli Kərimlinin şeirləri, Hüseyn Bağıroğlunun "Mən çiynimdən yerə qoydum dünyanı" kitabı İranda, Zeynəb Naxçıvanlının kitabı, Vaqif Məmmədovun şeirləri Türkiyədə işıq üzü görüb. Həmçinin Şamil Zamanın "Naxçıvanın şeir çələngi" adlı 700 səhifəlik kitabı fransız dilində oxuculara təqdim edilib. Bu kitabda 53 naxçıvanlı şair və yazıçının əsəri vardır. İsa Həbibbəyli həmin kitaba "Naxçıvanın poetik çələngi" adlı ön söz yazıb. "XI-XXI əsr Azərbaycan poeziya almanaxı"nı da Şamil Zaman fransız dilinə tərcümə edib. Burada da 15-ə yaxın naxçıvanlı müəllifin əsərləri işıq üzü görüb.

Mən arzu edirəm ki, gənclərimiz tərcümə sahəsinə fikir versinlər. Müxtəlif dilləri bilən gənclərimiz də bu işə cəlb olunsun.

*– Siz müsahibələrinizdə Naxçıvan Yazıçılar Birliyinin hərtərəfli qayğı ilə əhatə olunduğunu dəfələrlə bildirmisiniz. Bəs Yazıçılar Birliyinin ədəbi mühitin genişləndirilməsi istiqamətindəki fəaliyyəti necədir?*

– Naxçıvan Yazıçılar Birliyinin sədri kimi bir məsələni diqqətinizə çatdırım ki, birliyin qapıları hər bir yaradıcı insan üçün həmişə açıqdır və çalışırıq ki, qələm tutan gəncliyi Naxçıvan Yazıçılar Birliyinə cəlb edək. Hər bazar günü biz maraqlı ədəbi mövzularda dərnəklər təşkil edirik. Ayda bir dəfə "Gənclər günü", ayda iki dəfə "Anamın kitabı" adlı ədəbi dərnəklər də bu sıraya daxildir. Mən 20-dək gənc sadalayaram ki, onlar ədəbi mühitə son illərdə gəliblər və ümid vəd edirlər. Qafar Qərib, Elxan Yurdoğlu, Zaur Vedili hardasa gəncliyin sərhədlərini aşmaq üzrədirlər, amma bununla birlikdə qeyd edim ki, Rahil Tahirli, Qanun Ümman, Tural Ataş, Gülsadə İbrahimli, Tacirə Dünya, Gülşən Azəri, Aytəkin Dərya, Mövlan Əlioğlu, Humay Nur və başqalarının son illərdə dərc olunan şeirləri və hekayələri ədəbi mühitə yeni səslərin gəldiyindən soraq verir.

*– Siz qeyd etdiniz ki, Naxçıvanda nəsrlə məşğul olanlarımız var. Amma şeirlə müqayisədə bu, çox azdır. Mirzə Cəlil, Məmməd Səid Ordubadi, Hüseyn İbrahimov yurdu olan Naxçıvanda bu gün nəsrin vəziyyəti niyə belədir?*

– Əslində, bu gün Naxçıvanda nəsrlə məşğul olan yazıçıların əsərləri getdikcə artır. Əvvəllər Hüseyn İbrahimovun, Güllü Məmmədovanın, Rafiq Babayevin, Həmid Arzulunun hekayə və povestləri çap olunardı. Son vaxtlar bir çox yazıçılar da ortaya çıxdılar. Mən burada Rasim Gənzəlinin adını qeyd edərdim. O, bu günədək 5 romanını çap etdirib. Amma o əsərlərə kitab evlərində rast gəlinmir, geniş şəkildə oxuculara çatmır. Naxçıvanda naxçıvanlı müəlliflərin əsərləri tapılmır. Dilsuz Dünyamalıyevin, Əbülfəz Əsgərlinin, Sona Teymurbəylinin adlarını qeyd etmək istərdim ki, onların da nəsr əsərləri çap olunub və maraqla da qarşılanıb. Həmid Arzulunun "Qaçaq Quşdan", "Qırıq ayna" əsərləri də sevilərək oxunub. Hərdən müxtəlif şairlərin nəsrə meyil etməsini müşahidə edirik. Ancaq nədənsə gənclər arasında nəsrlə yazanlar çox azdır. Nərgiz İsmayılovanın, Tural Həsənlinin, Fərid Rəfibəylinin, Günay Məmmədovanın qələmlərini nəsrdə sınamaları təqdirolunasıdır.

Bu gün, həqiqətən də, Naxçıvanda formalaşan bir ədəbi mühitimiz var. Onu təəssüf hissi ilə qeyd edim ki, mühitimizdə yazan bir çox yazıçını, şairi cəmiyyətimiz tanımır. Düşünürük ki, bu, bizdə tanıtımın, imza günlərinin az olması ilə də əlaqədardır. Çünki Bakıda ədəbi mühitin tanıdılması istiqamətində böyük addımlar atılır. Son vaxtlar Elxan Yurdoğlunun, Tural Həsənlinin, Qafar Qəribin və Gülsadə İbrahimlinin kitablarının təqdimetmə mərasimləri və imza günləri təşkil edildi. Artıq Naxçıvanda da bizim yazıçıların və şairlərin oxucuları çoxalıb. Bu isə sevindirici haldır. Ona görə də bu barədə düşünməyin vaxtıdır.

*Müsahibə üçün sağ olun.*

**Fatma BABAYEVA**

## Novruz bayramı münasibətilə tədbir keçirilib



***Naxçıvan Dövlət Universitetində Novruz bayramı münasibətilə tədbir keçirilib.***

Universitetin həyətində tonqal alovlandırılıb, tələbələr tonqal ətrafında "Yallı" rəqsini ifa ediblər. "Kosa-kosa" oyunu, yumurta döyüşü nümayiş olunub.

Akt zalında davam etdirilən tədbirdə rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müəllim və tələbələri Novruz bayramı münasibətilə təbrik edib. Vurğulanıb ki, Novruz bayramının tarixi kökləri çox qədimə dayanır və ölkəmizin bütün bölgələrində böyük təntənə ilə qeyd olunur. Novruz bayramının mənşəyi, astroloji mənası, bütün türk xalqlarının ümumi bayramı olması ilə bağlı ətraflı məlumat verən rektor diqqətə çatdırıb ki, Sovet imperiyası zamanı qadağan olunmuş bu bayram xalqın yaddaşında qorunub saxlanılıb, müstəqillik qazanıldıqdan sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində qeyd olunmağa başlanıb. Çoxəsrlik tarixə malik, xalqımızın günümüzə qədər yaşatdığı, qoruyub gələcək nəsillərə ötürdüyü, müqəddəsləşdirdiyi Novruz bayramı özündə həyatı, yaranış və dirçəlişi, milli birliyi, təbiətin füsunkar gözəlliklərini, gələcəyə, xoşbəxtliyə, bolluğa ümidini əks etdirir.

Bayram tədbirində Novruz adət-ənənələri, universitetin xarici tələbələrinin də qoşulduğu yallılar, həmçinin ifa olunan müxtəlif musiqi nömrələri tamaşaçılara əsl bayram əhval-ruhiyyəsi bəxş edib.

**Mina QASIMOVA**

## Xatirə Muzeyində açıq dərs



***Xatirə Muzeyində Naxçıvan şəhərindəki 13 nömrəli tam orta məktəbin şagirdləri üçün açıq dərs keçilib.***

Açıq dərsdə "Şəhidlik – ömrün nur ocağı" mövzusunda çıxış edən muzeyin direktor əvəzi Aynurə Məhərrəmova Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin həyat və döyüş yolundan danışıb. Qeyd edilib ki, 1991-ci ilin noyabrında hərbi xidmətə çağırılan Yusif Goranboy və Ağdərə uğrunda gedən döyüşlərdə şəxsi igidlik nümunəsi göstərərək qəhrəmanlıqla həlak olub. Açıq dərsdə Yusif Mirzəyevin Vətən sevgisi və şəxsi keyfiyyətlərindən söhbət açılıb.

Sonda şagirdlər Xatirə Muzeyinin ekspozisiyası ilə tanış olublar.

## "Araz" kinoteatrında "*Arşın mal alan*" filmi nümayiş etdirilib



***Şahbuz şəhərindəki "Araz" kinoteatrında 1945-ci ildə çəkilmiş və yenidən bərpa olunmuş "Arşın mal alan" filmi göstərilib.***

Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov filmin nümayişindən əvvəl çıxış edərək bildirib ki, layihə əsasında kinosevərlər üçün hər həftə Azərbaycan filmləri göstərilir. Bayram ərəfəsində göstərilən "Arşın mal alan" filmi kinomuzu dünyada tanıdan ekran əsərlərindəndir.

Qeyd edilib ki, kinomuzun incilərindən sayılan bu film Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-cü ildə yenidən bərpa edilib və rəngli ekran əsərinə çevrilib. Görkəmli rejissorumuz Rza Təhmasibin çəkdiyi bu ekran əsərində Rəşid Behbudov, Leyla Bədirbəyli, Münəvvər Kələntərli, İsmayıl Əfəndiyev, Fatma Mehrəliyeva kimi Azərbaycanın böyük sənətkarları rol alıblar.

Sonra "Arşın mal alan" filmi nümayiş etdirilib.

**Əli RZAYEV**

## Futbol turnirinin qalibi 16 nömrəli tam orta məktəbin komandası olub

***Naxçıvan şəhərindəki 11 nömrəli tam orta məktəbin futbol meydançasında mini-futbol üzrə şəhər ümumtəhsil məktəblərinin komandaları arasında keçirilən turnir başa çatıb.***

Novruz bayramı münasibətilə Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi turnir olimpiya sistemi üzrə keçirilib.

İki gün davam edən turnirin həlledici qarşılaşmasında bütün rəqiblərini məğlub edən 16 və 10 nömrəli tam orta məktəblərin komandaları qarşılaşıb. Final görüşündə də üstün oyun sərgiləyən 16 nömrəli tam orta məktəbin şagirdləri meydanı 4:2 hesablı qələbə ilə tərk ediblər. Bununla onlar turnirin qalibi adını qazanıblar. Üçüncü yer uğrunda meydana 11 və 14 nömrəli məktəblərin komandaları çıxıb. Gərgin keçən matçda qələbə qazanan 11 nömrəli tam orta məktəbin komandası turnirin üçüncüsü olub.

Qalib komandalara diplom və kubok təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

**Bildiriş**

"Qardaş" Kiçik Müəssisəsi (VÖEN-0200131081) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-81-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 223